# Təlim prosesinin psixoloji mühit kimi xarakteristikası

**Aytən Davudova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** aytandavudova@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d. Ə.Ə. Əliyev

**Açar sözlər:** pedaqoji psixologiya, təlim fəaliyyəti, təlim prosesinin subyektləri, müəllim, şagird

**Ключевые слова:** педагогическая психология, психология обучения, субъектами учебного процесса, учитель, учеников

**Key words:** pedagogical psychology, educational activities, subjects of the educational process, teacher, pupil

Təlim dedikdə müəllim və şagirdlər arasında elə qarşılıqlı münasibətlər sistemi nəzərdə tutulur ki, bunun nəticəsində şagird bilik, bacarıq və vərdişlər sisteminə yiyələnir, onda əxlaqi, mənəvi və psixoloji keyfiyyətlər formalaşır (1, s. 6). Qısa şəkildə qeyd etsək, təlim - bilik, bacarıq və vərdişlərin, habelə dünyagörüşünün verilməsi və mənimsənilməsi prosesidir. Latınca «hərəkət», «inkişaf» mənasındadır. Təlim prosesi şagirdin idrak yolundakı hərəkəti ilə bağlıdır. O, biliksizlikdən biliklilliyə doğru inkişaf edir. Təlim prosesinin xarakteri, məzmunu və təşkili formaları cəmiyyətin tələbi ilə, elm və texnikanın inkişaf səviyyəsi ilə müəyyən olunur. Bu baxımdan müasir dövrdə şəxsiyyətyönlü təlimin qurulması davamlı inkişafın əsas prioritet istiqamətlərindəndir.

Təlim pedaqogikanın başlıca anlayışlarından biridir. Pedaqoji psixologiya yaranmağa başladığı ilk gündən bu anlayışdan geniş istifadə etmiş və təlimin psixoloji problemlərini müxtəlif yönümdə araşdırmışdır.

Pedaqoji psixologiya təlim problemini, təlimin təşkilinin psixoloji mexanizmlərini, qanunauyğunluqlarını və səbəblərini öyrənir. Təlim psixologiyasında "şagirdlərin təlim fəaliyyəti" anlayışı əmələ gəlib bərqərar olmuşdur.

Təlim müəllim və şagirdlərin birgə fəaliyyətinə əsaslanan, ikitərəfli, fəal pedaqoji-psixoloji proses olduğundan müəllimlə şagird fəallıq və səy göstərərək inkişafetdirici təlim qurmalıdır. Təlim prosesinə müəllim və şagirdlərin mexaniki olaraq yanaşı fəaliyyəti kimi baxmaq olmaz, təlim birgə, bütöv proses kimi qurulmalıdır (3, s. 135). Müəllim və şagirdlər ümumi məqsəd naminə, hər iki tərəfin qarşılıqlı olaraq fəal iştirakı ilə ifadə olunur.

Təlim situasiya istənilən haldan psixoloji qanunauyğunluqdan kənarda mövcud olmadığından, həmin situasiyanın həm pedaqoji həm də psixoloji cəhətləri diqqət mərkəzində olmalıdır. Çünki, dərs prosesi adi situasiyalardan fərqli şəkildə özünü göstərir. Doğrudur, təlim situasiyasını bütünlüklə psixolojiləşdirmək eləcə də, didaktik elementlərin dominantlığına birtərəfli qaydada şərait yaratmaq olmaz.

Təlim fəaliyyəti idrak prosesi ilə ünsiyyətin vəhdətinə əsaslanır. Bu prosesdə müəllim-şagird münasibətlərinin özünəməxsus rolu vardır. Tam və dəqiq şəkildə qurulan ünsiyyət təlim prosesində şagirdlərdə təlimə müsbət münasibətin formalaşmasına, müsbət motivasiyaya, təlimdə əlverişli mənəvi-psixoloji iqlimin yaranmasına kömək göstərir. Təlim prosesində subyektlərin səmimiliyi, qayğıkeşliyi, diqqətliliyi, ədalətliliyi təlimə maraq və

məsuliyyət hissini artırır (2, s. 91).

Təlim prosesi öyrədən və öyrənənlərin, eləcə də öyrədənlərin birlikdə qarşılıqlı fəaliyyətidir. Bu prosesdə informasiya mübadiləsi baş verir, sosial rollar, mövqelər və yönəlişlər formalaşır və subyekt-subyekt əlaqələri və qarşılıqlı münasibətlər ortaya çıxır.

Təlimin psixoloji mahiyyətinin müəyyən olunması üçün, onu qarşılıqlı təsir və ünsiyyət prosesi kimi təhlil etmək lazımdır. Müəllim təlim prosesində diqqətini, bir tərəfdən, şagirdlərin təhsil fəaliyyətinin təşkilinə, digər tərəfdən isə düzgün ünsiyyət şəraitinin yaradılmasına yönəltməlidir. Əgər o, diqqəti yalnız şagirdin təhsil fəaliyyətinə cəmləşdirib, düzgün ünsiyyət üslubunun yaradılmasını təmin etməzsə, təlim istənilən nəticəni verməz (5, s. 219).

Təlimdə müəllim-şagird münasibətləri ilə yanaşı, şagirdlərin bir-birinə münasibəti də az rol oynamır. Sinifdə uşaqlar arasında səmimilik, yoldaşlıq, qarşılıqlı yardım şəraiti təlim-tərbiyə prosesinə müsbət təsir göstərir. Təlim şagird üçün subyektiv cəhətdən əhəmiyyət kəsb etməlidir. O, təlimin özü üçün əhəmiyyətini təkcə ağıl məntiqilə deyil, həm də hiss məntiqilə "başa düşməlidir" (4, s. 327). Bunun üçün təlim şagirdin iddia səviyyəsi və idealları ilə bilavasitə əlaqələndirilməlidir. Psixoloji tədqiqatlar əsaslı surətdə göstərir ki, tədris fəaliyyəti formalaşanda şagird, sözün əsl mənasında, öz fəaliyyətinin subyektinə çevrilir. Onun təlim motivasiyasında keyfiyyətcə yeni xüsusiyyətlər əmələ gəlir. Tədris fəaliyyətində idrak maraqlarının aktuallaşması üçün psixoloji cəhətdən əlverişli şərait yaranır.

Ümumiyyətlə, təlim prosesində təhsil alanlara psixoloji cəhətdən yanaşmadan, onun psixoloji durumunu öyrənmədən, onun psixoloji durumunu müəyyənləşdirmədən onu nə tərbiyə etmək, nə də ona bilik, bacarıq və vərdişlər vermək işində müvəffəqiyyət qazanmaq olar. Bütün dünyada təlim prosesi ilə bağlı belə bir ümumi fikri var ki, uşağı həm fizoloji, həm psixoloji cəhətdən pedaqoji prosesdə öyrənmək mümkündür.

Pedaqoji və ümumi psixologiyada müxtəlif təlim konsepsiyaları yaradılmışdır. Onlardan tarixi-mədəni konsepsiya (L.S.Vıqotski), fikri fəaliyyətin mərhələli formalaşması konsepsiyası (P.Y.Qalperin), inkişafetdirici təlim nəzəriyyəsi (V.V.Davıdov, D.B.Elkonin, Z.İ.Kalmıkov, N.A.Mençinskaya, L.V.Zankov və başqaları), problemli təlim nəzəriyyəsi (Q.V.Kudryavsev, İ.Y.Lerner, A.M.Matyuşkin, M.M.Mahmudov və başqaları), tolimin optimallaşdırılması nəzəriyyəsi Y.K.Babanski, öyrənmənin dərketmə konsepsiyası (B.H.Əliyev, R.V.Cabbarov) və başqalarını qeyd etmək olar.

**Məqalənin aktuallığı.** Təlim problemi pedaqoji psixologiyanın həm nəzəri, həm də tətbiqi problemi olduğundan müasir dövrdə məktəblilərin psixi inkişafı və bunun təlim prosesi ilə qarşılıqlı münasibəti məsələsinin araşdırılması aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə təlim psixoloji istiqamətdən məqsədə yönəlmiş proses olaraq araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən təlim prosesinin psixoloji baxımdan təşkilində, şagirdlərin, müəllim və valideynlər üçün elmi-metodik tövsiyyələrin hazırlanmasında, elmi-tədqiqat müəssələrində mütəxəssislərin tədqiqat işlərində istifadə oluna bilər.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
3. Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı, 2006.

4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı, 2010, 600 s.
5. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.

**А. Давудова**

## Характеристика процесса обучения как психологического климата

## Резюме

Обучение это двусторонний, активный психолого-педагогический процесс, основывающийся на совместной деятельности учителя и учащихся. Для определения психологического содержания процесса обучения, мы постарались раскрыть его как процесс общения и взаимовлияния, исследуя теоретические основы обучения и структуру учебной деятельности.

**A. Davudova**

## Characterizing the Learning Process as Psychological Process

## Summary

Learning is a bilateral, active pedagogical and psychological process based on mutual teacher-student cooperation. To highlight the psychological importance of the learning process the research aims at studying the theoretical basis and the structure of the learning activities, analyzing its lawfulness, and defining it as an interdependent and communicative process.

**Redaksiyaya daxil olub:** 17.12.2018